## "GS1 DataBar. Start 2010" layihəsi

GS1 ştrixkodların yeni simvolikar üzrə layihə hazırlayıb. Bu layihənin əsas elementlərini oxucuların diqqətinə təqdim edirik.
2010-cu ilin yanvar ayının 1 GS1 DataBar adlanan yeni tipli ştrixkodların tətbiqin başlandığı tarixdir.
Belə tipli kodlar əvvəllər məhdud ölçülü ştrixkod adlanıb. GS1 DataBar simvolikaları ənənəvi EAN/UPC ştrixkodundakı məlumatları özündə əks etdirir. Ancaq həmin ölçülü və hətta kiçik ölçülü sahədə daha çox məlumata malikdir. Yeni kodlar həm ticarətçilər, həm də mal istehsalçıları üçün biznes-təkliflərin reallaşması zamanı böyük üstünlüklər və yeni imkanlar verir.

*Layihənin tərkibi haqqında nəyi bilmək lazımdır?*

***Sual: "GS1 DataBar" – kiçildilmiş ölçülü RSS simvolunun yeni adıdır?***
***Cavab:*** Bəli. Əvvəl kiçildilmiş ölçülü simvolika (RSS ing.) adlanan bu simvolika 2007-ci ilin fevralından yeni GS1 DataBar rəsmi adı verilib.

***Sual: EAN/UPC ştrixkodları GS1 DataBar simvolikaları ilə əvəz olunacaqmı?***
***Cavab:*** Həmişə yox. Bu malın qablaşmasının dizaynının tətbiqinə məsul olan tərəflərin öhdəsinə buraxılacaq. Yeni məlumatların daxil edilməsi tələb olunmadıqda və qablaşmanın ölçüsü EAN/UPC simvolikanın tam yerləşməsi üçün kifayət etdikdə belə dəyişikliyə ehtiyac olmur. Əgər malın istehsalçısı qablaşmada boş sahəni istehlakçı üçün əlavə məlumat yerləşdirmək məqsədilə istifadə etmək istəyirsə, bu halda yeni simvolikalara keçmək məqsədəuyğundur.




***Sual: GS1 DataBar ştrixkodları nə vaxt tətbiq olunacaq?***
***Cavab:*** GS1 DataBar simvolikaları hazırda səhiyyə sənayesində tətbiq edilir, ancaq bu



kodların istənilən əmtəə vahidinə tətbiqi imkanı 1 yanvar 2010-cu ildən etibarən mümkün olacaq.
Bu vaxta isə qədər bütün satış məntəqələrinin GS1 DataBar simvolikaların oxumağa qadir olan skanerlərlə təmin olunması tövsiyə edilir.

***Sual: GS1 DataBar ştrixkodları GTIN-14 nömrəsini və ya əlavə məlumatları özündə cəmləşdirə bilir, ancaq onlar bu gün kassa vasitəsilə (supermarketlərdə) satış sistemində istifadə oluna bilmir. 2010-cu ildə malların kassa vasitəsilə satış sistemi üçün bu kodlara icazə veriləcəkmi?***
***Cavab:*** Hələki yox. Biznes təcrübəsində tətbiqini tapdığı zaman GTIN-14 nömrəsinin və ya əlavə məlumatların (seriya nömrəsi, lotların nömrəsi, yararlılıq müddəti və s.) istifadəsinə icazə veriləcək. Əsas səbəb: yeni daxili sistemə məcburi investisiyalar GS1 DataBar kodların istifadə edən biznesin timsalında əsaslandırılmalıdır.

***Sual: GS1 DataBar ştrixkodu logistik vahidlərdə SSCC nömrəsinin əks olunması üçün istifadə olunacaqmı?***
***Cavab:*** Yox. GS1 bunu tövsiyə etmir. Çünki təşkilatın fikrincə, GS1-128 ştrix kodu bu ehtiyacları tam ödəyir.
Güman ki, logistik vahidlərdə radiotezlikli Elektron Əmtəə Kodu (EPC) tətbiq ediləcək.